Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

# Postmüharibə reallıqlarının dünyaya çatdırılmasında diaspor təşkilatlarımızın vəzifələri - xarici mediada fəaliyyət yetərlidirmi...

**Prezident İlham Əliyevin Vətən müharibəsi zamanı xarici KİV-lərə verdiyi çoxsaylı müsahibələrin hər biri Azərbaycanın informasiya müharibəsində qələbəsinin təminatı idi.**



Həmin müsahibələrdə dövlət başçısı Ermənistanın işğalçılıq siyasətinin əsl təcavüzkar mahiyyətini ifşa etdi və bu da informasiya müharibəsində ermənilərə çox böyük zərbə oldu, Azərbaycana qarşı qərəzli fikirlər müsbətə doğru dəyişməyə başladı. Yəni əvvəllər üzləşdiyimiz haqsız vəziyyətlər artıq aradan qalxıb, indi situasiya tam fərqlidir. Bu gün də dövlət başçısı qalib Azərbaycanın qalib lideri kimi postmüharibə dövrünün reallıqlarından danışır.

Postmüharibə dönəmində keçirilən beynəlxalq tədbirlərdə və verdiyi müsahibələrdə Prezidentə ünvanlanan suallar göstərdi ki, beynəlxalq aləmə işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası, Azərbaycanın regionda yeri və rolu ilə yanaşı, dövlət başçısının dünyada gedən proseslər haqqında rəyi də maraqlıdır. Suallar həm də göstərir ki, bir çox qlobal məsələlərlə bağlı Azərbaycanla əməkdaşlıq etmək, ölkəmizin proseslərə münasibətini öyrənmək istəyən auditoriyanın sıraları genişlənib. Bu da onunla əlaqədardır ki, Azərbaycan artıq regionda yeni reallıq yaradıb. Artıq dünya ictimaiyyəti yaxşı bilir ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində Azərbaycan məhz öz gücü, iradəsi hesabına erməni işğalına son qoyub, torpaqlarını qaytarıb, öz ərazi bütövlüyünü bərpa edib. Bu gün dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən informasiya siyasəti, ermənilərin ötən dövr ərzində, xüsusilə də 44 günlük Vətən müharibəsi dövründə həyata keçirdikləri ağır müharibə cinayətlərinin izlərinin silinməsinin qarşısını alır.

### Azərbaycanın yaratdığı reallıqları dünyaya düzgün şəkildə çatdırmaq postmüharibə dönəminin tələbidir

Ancaq bu istiqamətdə yalnız ölkə başçısının apardığı informasiya savaşı ilə kifayətlənmək olmaz. Xüsusilə də xaricdə fəaliyyət göstərən səfirliklərimiz və diaspor təşkilatlarımız bu istiqamətdə fəaallıq ortaya qoymalıdır. Çünki Azərbaycanın yaratdığı reallıqları dünyaya düzgün şəkildə çatdırmaq postmüharibə dönəminin tələbidir. Azərbaycan dövləti bu istiqamətdə əlindən gələni edir. Sərhədlərin açılması pandemiya səbəbilə Vətənə gələ bilməyən xaricdə yaşayan minlərlə soydaşımızın yay tətilini Azərbaycanda keçirməsinə şərait yaratdı.

Həmin diaspor nümayəndələrindən bir çoxu gözlənilməz sürprizlə qarşılaşdılar. Belə ki, diaspor fəallarının vətəndə olmaları nəzərə alınaraq onların Şuşaya səfərləri təşkil edildi. "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında reallaşan səfər Azərbaycan diasporunun ən yaddaqalan tədbirlərindən biri kimi tarixə həkk olundu. Səfər çərçivəsində diaspor nümayəndələri bir daha erməni vandallığının şahidi oldular. Şuşaya gedən yol boyu viran edilmiş yaşayış məntəqələri, Yer üzündən silinmiş qəbirlər, kəsilmiş ağaclar, minalanmış ərazilər görünür ki, bu da artıq az qala bütün dünyada Ermənistanın atributu kimi qəbul edilir.

Xaricdə yaşayan soydaşlarımız Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində oldular, burada baş meydan "Bazarbaşı"nı, Cıdır düzünü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydanı, Şuşa Bəyannaməsinin imzalandığı məkanı, Xurşidbanu Natəvanın evini, "Xan qızı bulağı"nı, Gəncə Qapısını, Saatlı, Aşağı və Yuxarı Gövhərağa məscidlərini və digər mühüm yerləri ziyarət etdilər. Bundan əlavə, Qarabağın incisi qədim Şuşanın tarixi, mədəniyyəti, dahi şəxsiyyətləri və ölkə rəhbərliyinin tapşırığı ilə burada aparılan quruculuq işləri barədə soydaşlarımıza geniş məlumat verildi.

28 ildən sonra baş tutan Şuşa səfəri diaspor nümayəndələri üçün böyük sürpriz olmaqla yanaşı, unudulmaz anların yaşandığı tarixi hadisə kimi yaddaşlarda qalacaq. Əlbəttə, bu səfər Vətən həsrətinə son qoyulması kimi böyük mənəvi əhəmiyyət daşıyır. Lakin Azərbaycanın mədəniyyət paytaxtına təşkil olunan səfərin digər mühüm və incə məqamlarını da vurğulamaq yerinə düşər.

### Öz profilində paylaşmaq və ya Azərbaycandakı KİV-lərə müsahibə verməklə iş bitmir

Bu, ilk növbədə Qarabağ reallığının tam fərqli təqdimatla dünya ictimaiyyətinin diqqətinə çatdırılması və xaricdə erməni vandalizminə layiqli qiymət verilməsi, hadisələrin olduğu kimi, video və fotolarla təhrif olunmadan tanıdılması baxımından vacib, həm də effektiv və əvəzedilməzdir. Ancaq təəssüflə qeyd etməliyik ki, bzəen diaspor fəallarının bu həqiqətləri dünya ictimaiyyətinə çatdırılması istiqamətində müəyyən ağsaqlıqları görürük.

Bu cür səfərdə görülən reallıqları yalnız öz profilində paylaşmaq və ya Azərbaycandakı KİV-lərə müsahibə verməklə iş bitmir. Gərəkdir ki, bu cür informasiyalar həmin diaspor nümayəndələrinin təmsil olunduqları ölkələrin KİV-lərində də geniş işıqlandırılsın. Yəqin ki, bu cür fürsəti səfərdə iştirak edən diaspor fəallarımız yaxşı dəyərləndirib, Azərbaycan həqiqətlərinin xarici auditoriyaya çatdırılması istiqamətində qeyd etdiyimiz addımları atacaqlar. Postmüharibə dönəminin vacib reallıqlarını çatdırmaq üçün ermənilərlə informasiya mübarizəsində bu olduqca önəmlidir.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı Xəbər.- 2021.- 21-23 avqust.- S.10.